# KİTABXANALARDA İNNOVASİYA FƏALİYYƏTİ VƏ İNFORMASİYA TƏMİNATI MƏSƏLƏLƏRİ

**İSLAMOVA Ş.F.**
*AMEA-nın İqtisadiyyat İnstitutunun kitabxana müdiri, t.ü.f.d.*
*shafaq.ace@gmail.com*

*Məqalədə yeni informasiya cəmiyyətində mərkəzi və regional kitabxanaların qarşısında duran əsas problemlərin həllində innovasiyaların tətbiqi, onların inkişaf dinamikası və istifadə mexanizmlərinə nəzər salınmış, müasir dövrün tələbləri çərçivəsində həll olunması zəruri olan problemlərin əsas istiqamətləri işıqlandırılmışdır.*

***Açar sözlər:*** *kitabxana, kitab, oxucu, innovasiya, informasiya, yenilik, elektron kataloq, texnologiya, məhsul, avtomatlaşdırma.*

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, kitabxana şəbəkələrinin inkişafı yeni texnologiyaların tətbiqi əsasında mümkündür ki, bu da öz növbəsində strateji nöqteyi-nəzərdən düzgün innovativ inkişaf proqramının seçimi ilə sıx bağlıdır. Kitabxanaların inkişafına və onun səmərəlilyinin yüksəldilməsinə təsir göstərən proseslər, hadisələr olduqca çoxdur.

Məlumdur ki, elm adamları bütün dövrlərdə insanın inkişafa və sivilizasiyaya yönəlməsini araşdırarkən öncə dəqiq ifadə olunmuş inkişaf strategiyası əsasında qarşıya qoyulmuş məqsədə çatmaq üçün real həll yolunu göstərən mövcud inkişaf təcrübəsinə əsaslanmışdır. Belə ki, kitabxanaların fəaliyyətinin intensivləşdirilməsini sürətləndirmək məqsədilə yeni, daha mükəmməl və yüksək müasir texnologiyadan istifadə edilməsi zərurəti yaranır. Müasir dövrdə yüksək texnoloji proseslər kitabxanaların bütün fəaliyyətinə dərindən və hərtərəfli nüfuz etməklə yanaşı, kitabxanaların optimallaşmasına da müsbət təsir göstərmişdir. İnnovasiyalar öz mahiyyətinə görə elm və texnologiyalar sahəsində baş verən yenilikləri özündə birləşdirən mürəkkəb bir prosesdir və yeniliklə bağlı ideyanın kitabxananın hər sahəsində yaradılmasından başlamış oxuculara xidmətə qədər kompleks məsələləri əhatə edir [2, s. 12]. Dinamik struktur dəyişikliklərinin xas olduğu əsrimizdə cəmiyyətin uğuru daha çox onların texnoloji, sosial və mədəni müxtəlif növ yenilikləri yaratmaq, dərk etmək və istifadə etmək qabiliyyətindən asılıdır. Kitabxanalarda innovasiyalar həm yeni məhsullar yaratmaqla oxucuların daim artan tələbatını ödəyir, həm də yeni məhsulların istehsalı üçün müasir texnologiyaların yaradılmasına təsir göstərirlər [3, s. 13].

İnformasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı, bununla bağlı qloballaşma proseslərinin güclənməsi ölkələrin sosial-iqtisadi inkişafına ciddi təsir göstərir. Beynəlxalq xarakterə malik qlobal amillər iqtisadiyyatın bütün sahələrinə nüfuz edir. Bu gün dünya iqtisadiyyatının inkişafının əsas istiqamətlərindən biri qloballaşma şəraitində innovasiya fəaliyyətinin ma-

hiyyətcə yeni konteksdə formalaşmasından və inkişaf etməsindən ibarətdir. Bununla əlaqədar beynəlxalq səviyyədə sosial-iqtisadi proseslərin dəyişməsi və inkişaf tempi, innovasiya yeniliklərinin yaradılması, onların istehsal sahəsinə tətbiqi daha sürətlə baş verir.

Bu, əslində qloballaşmanın iqtisadi proseslərə müsbət təsirini xarakterizə edir, ölkələrin, onların aparıcı kompaniyalarının, firmalarının, müəssisə və təşkilatlarının innovasiya yeniliklərindən, mütərəqqi texnologiyalardan və yeni idarəetmə metodlarından faydalanmalarına geniş imkanlar yaradır. Dünya iqtisadiyyatının gələcək inkişafı əsasən bu amil əsasında mümkün olacaqdır.

Elmi ədəbiyyatlarda innovasiyanın mahiyyətinin açıqlanmasına müxtəlif yanaşmalar mövcuddur. Bir qrup mütəxəssislər innovasiyaya hər hansı bir yenilik kimi yanaşırlar. Digər bir qrup alimlər isə innovasiyaya son nəticədə yeni bir şeyin yaranmasını təmin edən proses kimi baxırlar. Başqa bir yanaşmada innovasiyaya hər hansı bir institusional dəyişiklik kimi baxılır.

Müasir innovasiyanın mahiyyətinin açıqlanmasına digər yanaşmalar da mövcuddur və onların hamısı son nəticədə innovasiyanı yeniliyin yaradılması və tətbiq edilməsi kimi qiymətləndirirlər [4, s.16].

"İnnovasiya" ifadəsi (ingiliscədən "innovation") başlanğıcda, hələ XIX əsrdə mədəni dəyişikliklərlə əlaqələndirilir və bu günə kimi də onun mənası etnoqrafiyada saxlanılır. Üçüncu minilliyə qədəm qoyduqdan sonra dönüb geriyə baxdıqda, görürük ki, bəşəriyyət durmadan inkişaf edir. Bütün dəyişikliklərin əsasında texnoloji inkişaf, innovasiya prosesləri xüsusi rol oynayır.

İnnovasiya yönümlü inkişaf modeli öz yüksək səmərəliliyini dünyanın inkişaf etmiş ölkələrinin timsalında sübuta yetirmişdir. Tarixin dərinliklərində şərqdən başlayan böyük mədəniyyətlər müxtəlif maddi və mənəvi dəyərlərə əsaslansalar da, bəşəriyyətin irəliyə doğru addımlamasına məlum töhfələr vermişlər. Son bir neçə yüz il ərzində bəşəriyyətin tarixdə görünməmiş sürətli inkişafı, elmi-texniki və texnoloji inqilablar Qərb mədəniyyəti və onun yaratdığı bazar iqtisadiyyatı ilə bağlıdır [2, s.10].

Kitabxana işində innovasiya deyəndə, dəyişikliklərin nəticələri başa düşülür. İnnovasiya fəaliyyəti - kitabxana işinin əsas istiqamətlərindən biridir. Onun məqsədi kitabxana işində olan yeniliklərin axtarışı, qiymətləndirilməsi, işlənib hazırlanması və tətbiqidir. Kitabxanalar üçün bu, kitabxana fəaliyyətini keyfiyyət baxımından təkmilləşdirən, əvvəlki analoqlardan yeni xüsusiyyətləri ilə fərqləndirən, yeni məhsulların, xidmətlərin, texnoloji proseslərin təcrübədə həyata keçirilən nəticələridir.

İnnovasiyalar miqyasına görə lokal və qlobal olurlar. Başqa sözlə desək, onlar – dünya, ölkə, sahə, müəssisə və s. görə bölünürlər. Lokal innovasiyalar ancaq bir yerdə həyata keçirilən innovasiyalardır. Misal üçün, hər hansı bir kitabxananın işinin planlaşdırılmasında tətbiq edilə bilər. Qlobal innovasiyaya misal olaraq





"WINDOWS" əməliyyat sisteminin proqramlarının bütün şəxsi kompüterlərə inteqrasiyasını və ya dünyanı əhatə edən internet şəbəkəsini göstərmək olar [1, s.12].

Kitabxana işində yenilik deyəndə, sənədlərdə əks olunmuş və maddi obyektdə, texnologiyanın və ya xidmətin təsvirində təcəssüm olunan yeni ideyanın tətbiqi nəticələri başa düşülür. Kitabxana innovasiya cəmiyyətində, elmdə, texnikada, idarə etmədə baş verən yenilikləri özündə birləşdirən mürəkkəb bir prosesdir və o, yeniliklə bağlı ideyanın yaradılmasından başlamış bütün kompleks sahələri - yeni xidmət növünü, komplektləşməni, mübadiləni əhatə edir.

"İnnovasiya" konsepsiyası kitabxananın yeni və ya tanınmış, lakin modernləşdirilmiş forma və metodlarının təkmilləşdirilməsinə kömək edir. İnnovasiya "Yenilik" anlayışına yeni və ya kitabxana işinin məlum, lakin modernizasiya edilmiş, təkmilləşdirilməsinə kömək edən forma və metodları daxil edilir. Kitabxanada yeniliklərin qaynaqları kitabxanaların qabaqcıl təcrübələri, kitabxanaçıların səmərəli təklifləri, elmi tədqiqatlar üçün tövsiyələr və yeni informasiya texnologiyalarıdır. Yeniliklərin tətbiqi fərqli olmalıdır. Ədəbiyyatın təbliğinin yenilikçi formalarının tətbiqi kitab zənginliyinin hərtərəfli və qeyri-ənənəvi açıqlanmasına, istifadəçilərə məlumatın müxtəlif sahələrində öz biliklərini müəyyən etməyə və əlavə etməyə, iştirakçıların kütləvi tədbirlərdə yaradıcı potensialını ortaya qoymağa imkan verir.

Kitabxana innovasiyaları məhsullara, texnoloji və idarəetməyə bölünür. Məhsul innovasiyaları dedikdə, yeni kitabxana xidmətlərinin təkmilləşdirilməsi və ya mənimsənilməsi, onların çeşidinin genişləndirilməsi kimi başa düşülür. İdarəetmə innovasiyaları kitabxananı idarəetmə metodlarının təkmilləşdirilməsinə, idarəetmə fəaliyyətinin sosial aspektlərinin təşkilinə yönəldilmişdir. Kitabxanalarda yeniliyin mənbəyi qabaqcıl kitabxana təcrübəsi, kitabxanaçıların səmərələşdirici təklifləri, tövsiyə edilmiş elmi-tədqiqatlar, yeni informasiya texnologiyalarıdır. Əlbəttə ki, kitabxana təcrübəsi və digər fəaliyyət sahələrindən (məsələn, informasiya texnologiyaları, elektron multimedia resursları, kompüter şəbəkələrinin istifadəsi) istifadə olunan yeniliklərdən də istifadə edilməli və uyğunlaşdırılmalıdır. Bu texnoloji yeniliklər kitabxanaların bütün iş proseslərinin modernləşdirilməsi, kitabxana işində əməyin elmi təşkilinin müxtəlif istiqamətlərinin həyata keçirilməsi, yeni avtomatlaşdırılmış kitabxana texnologiyalarının tətbiqi ilə sıx bağlıdır. Lakin bununla bərabər, kitabxana işinin ənənəvi üsulları da davam edir.

Kitabxana innovasiyalarının texnologiya səviyyəsində məlumat-biblioqrafiya və informasiya xidmətində həyata keçirilməsi onun səmərəli təşkilindən, qarşısında duran vəzifələrin həllindən asılıdır. Bu şərtlər altında, məlumat-biblioqrafiya xidmətinin təşkili köhnə və yeni metodları hesabına, daha doğrusu, adət-ənənələrin qorunması, yeniliklərin axtarılması kimi prinsiplər hesabına həyata keçirilməlidir. Bunun üçün kitabxanalarda təlimlərin keçirilməsi zəruridir. Təlimlər kitabxana işinin modernləşdirilməsi kontekstində öy-

rənmə metodu, bacarıqların inkişaf etdirilməsi və iştirakçıların yaradıcılıq imkanlarının aşkar edilməsidir. Təlimlərin əsas məqsədi gəncləri aktiv ünsiyyətə çevirməyə, məlumat mübadiləsinə, kompromis həlli tapmaq üçün istifadə olunur. Məsələn, tütünün Avropaya necə gəldiyinin tarixi haqqında tarixçi, dişlərin tütündən pisləşdiyini diş həkimi, tütünün tərkibində olan maddə haqqında kimyaçı, siqaret çəkməyin zərəri haqqında psixoloq məlumat verir. Təlimlər gənclər arasında keçirilən ən aktiv formalardan sayılır. Müvəffəqiyyətli təlimləri hazırlayarkən ilk növbədə mövzular əvvəlcədən seçilməli, aydın şəkildə məqsədi və aparıcı şəxs müəyyənləşdirilməlidir. Təlimlərin müvəffəqiyyətlə həyata keçirilməsi üçün məşqlərin keçirilməsi məqsədəuyğundur.

İndi respublikamızda 10 mindən çox kitabxana fəaliyyət göstərir. Onların xeyli hissəsində müasir informasiya texnologiyalarına əsaslanan internet resurs mərkəzləri – lokal və qlobal elektron kataloq sistemləri yaradılır. Kompüter texnologiyasının kitabxanalarda fəal şəkildə tətbiqi yolu ilə istifadəçiləri ən yaxşı muzeylərə, dünyanın ən böyük kitabxanalarına virtual səyahətlər etmək, bədii şah əsərləri ilə tanış olmaq imkanı əldə edirlər. 2008-ci ildə işlənib təsdiq edilmiş dövlət proqramlarında kitabxanaların 8 inkişaf istiqamətlərindən biri də virtual elektron kataloq sisteminin yaradılması problemidir. Oxucuların onlayn rejimində informasiya axtarışında və kitabxananın daxili proseslərinin avtomatlaşdırılmasında elektron kataloqlaşdırmanın həlledici rolu vardır.

Azərbaycanda bir çox iri kitabxanalar 10 ildən artıqdır ki, modernləşməyə hazırlıq dövrünü yaşayır, elektron kataloq sistemini qurur, elektron kitabxana üçün baza formalaşdırırlar. Lakin yaxın gələcəkdə kitabxanalarımızda elektronlaşma proseslərinin daha mütərəqqi istiqamətlərini müəyyənləşdirmək üçün bir sıra yeniliklərə ehtiyac duyulur. Azərbaycan kitabxanalarında yaradılan elektron kataloq sistemlərinin yaxın gələcəkdə inkişafı üzrə vəzifələri aşağıdakı kimi müəyyənləşdirmək olar:

- kitabxanalarda elektron kataloqu inkişaf etdirmək üçün MAKİS yaradılmalıdır;
- web-kataloq sistemi elektron sənədlərin göndərilməsi mexanizmi ilə təchiz edilməlidir;
- elektron kataloqa əlyetərliliyin səviyyəsini yüksəltmək üçün 3G və Web 3.0 texnologiyalarından istifadə olunmalıdır;
- elektron kataloq sisteminin təhlükəsizlik məsələləri həll olunmalı, kibertəhlükələrə qarşı önləyici tədbirlər görülməlidir;
- nitqin tanınması sistemi və mətnin nitqə çevrilməsi sistemi ilə elektron kataloqun yaradılması işi uzlaşdırılmalıdır və s.

Beləliklə, informasiya-texnoloji mühitin mürəkkəbləşməsi ilə kitabxananın istifadəçilərə informasiya axtarışı bacarıqlarına yiyələnməsində əhəmiyyəti artır, kitabxana mütəxəssisinin yeni məlumat resursları ilə oxucular arasında informasiya vasitəçisi kimi rolu güclənir. Hazırda bu gün mövcud olan kitabxana sistemindən daha müasir "İRBİS" sisteminə keçilir. Kitabxananın innovasiya fəaliyyəti təcrübəsi göstərir ki, ənənəvi və rəqəmli texnologiyaların qarşılıqlı əlaqəsi kitabxana-tədris praktikasını zənginləşdirir, onun təkmilləşməsinə kömək edir.





Texnologiyalar və yeniliklərin dərk edilməsi, onların metodoloji əsaslarının araşdırılması, texnologiyalar və yeniliklərin idarə edilməsi, ümumiyyətlə, yeniliklərə olan müsbət münasibətin yeni nəsildə bəslənməsi və inkişaf etdirilməsi ən vacib məsələlərdəndir.

## ƏDƏBİYYAT

1. *S.H.Abbasova. Texnologiyalar və yeniliklərin idarə edilməsi. - Bakı, Azərnəşr, 2008. -288s.*
2. *Prof.Dr. Haydar Baş. Millli iqtisadi model. - Bakı: BDU, 2005. – 305 s.*
4. *F.Qasımov, T.Əliyev. Milli innovasiya sisteminin təşkili və idarə edilməsi: Dərs vəsaiti. - Bakı: Elm və təhsil, 2013. – 680s.*
5. *Инновационные формы работы в библиотеке : Методико-библиографическое пособие / МКУК «ЦБС ИМР СК» г. Изобильный Инновационно-методический отдел. - Изобильный, 2014. - 32с.*

## ИННОВАЦИЯ И ИНФОРМАЦИОННАЯ ПОДДЕРЖКА В БИБЛИОТЕКАХ

**ИСЛАМОВА Ш.И.**

***РЕЗЮМЕ***

*Статья посвящена применению инноваций в решении основных проблем, стоящих перед библиотеками в информационном обществе, динамике развития и механизме его использования в рамках современных требований.*

***Ключевые слова:*** *библиотека, книга, читатель, инновация, информация, инновация, электронный каталог, технология, продукт, автоматизация.*

## INNOVATION ACTIVITY IN LIBRARIES AND THEIR INFORMATION SUPPORT

**ISLAMOVA SH.I.**

***SUMMARY***

*The article focused on the application of innovations in the solution of the main problems facing libraries in the information society and development dynamics, as well as the mechanism of its use within the framework of the modern requirements.*

***Key words:*** *library, book, reader, innovation, information, innovation, electronic catalog, technology, product, automation.*